**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**BAĞIR HƏMİD oğlu BABAYEV**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ (1900-1920-ci illər) AZƏRBAYCAN DEMOKRATİK FİKRİNDƏ SOSİAL- SİYASİ PROBLEMLƏR

İxtisas: 7210.01- Fəlsəfə tarixi

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi AMEA Fəlsəfə İnstitutunun "Fəlsəfə və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məslləhətçi:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Əlikram Mirhəsən oğlu Tağıyev**

**Rəsmi opponentlər:** fəlsəfə üzrə elmlər doktoru, dosent
**Aydın Arif oğlu Əlizadə**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Qəmər Cəfər qızı Mürşüdlü**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

Müdafiə «» fevral 2018-ci ildə saat də Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H. Cavid prospekti 31, AMEA-nın Fəlsəfə İnstitutu, IX mərtəbə, Konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____»_yanvar_ 2018-ci ildə göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru: S. A. Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı:**Tədqiq etdiyimiz mövzunun aktuallığına diqqətimizi yönləndirməklə problemin öyrənilməsinə, nəzəri-metodoloji məsələlərə aydınlıq gətirməyə, tədqiqatın məqsəd və vəzifələrini, elmi yeniliyini,praktiki əhəmiyyətini açıb göstərməyə səy etmişik. Fikrimizcə, apardığımız tədqiqatın aktuallığını şərtləndirən məqamlar belədir ki, XX əsrin sonlarında SSRİ-nin dağılması, sosializm sisteminin iflası və "soyuq müharibə"nin başa catmasıqloballaşmanın daha geniş təsirinə məruz qalmış dünyanın inkişaf istiqamətlərnii müəyyənləşdirdi. Qloballaşma o zamandan "müasir dünya inkişafının əsas meyli kimi çıxış edir".[1]

Bugünkü anlamda, qloballaşma milli-mənəvi dəyərlərə yeni qlobal dəyərlər qatmışdır. Artıq bu proses qaçılmaz və qarşısıalınmazdır. Müasir qlobal dünyamızda başlıca vəzifəmiz suverenliyimizin, mentalitetimizin, keçmişimizdən miras qalan zənginmilli-mənəvi dəyərlərimizin qorunub saxlanmasıdır. Son dərəcə nəhəng dəyişikliklərin baş verdiyi, fərqli sivilizasiyaların, Şərqlə Qərb təfəkkür tərzinin yaxınlaşdırılmasına edilən səylər zaman-zaman fəlakətlərə yol açır. Sivilizasiyalararası toqquşmalar, tarixən formalaşmış milli-mənəvi və əxlaqi dəyərlərin qorunması aktual problemə çevrilir."Bu maraq dünyanı bir-birinə bağlayan qloballaşmanın özəllikləri ilə əlaqədardır".[2]Bu gün fəal şəkildədünyaya inteqrasiya edən, milli-mənəvi dəyərlərinə sahib çıxan Azərbaycan Respublikasındavətəndaş cəmiyyətinin formalaşması, iqtisadiyyatın güclü inkişafı, sosial rifahın yaxşılaşması "demokratik, hüquqi dövlət quruculuğu prosesinin təmin olunması üçün əsas şərtdir"[3].Milli maraqlarımızın reallaşması üçün yeni imkanlar açılmış,milli-mənəvidəyərlərimizin nəsillərdən-nəsillərlə ötürülməsinin əhəmiyyəti tədqiqatın aktuallığını şərtləndirən amillər sırasında qiymətləndirilə bilər.

Azərbaycanfəlsəfi və ictimai fikir tarixində XX əsrinəvvəlləri son zamanlara qədər obyektiv tədqiqatlardan uzaqda qalmışdı. Burada elmi obyektivliyə cəhd edilmiş, əksər hallarda maneələr aşılıb-keçilməz olmuşdu.

---

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, müsahibələr, məruzələr, fərmanlar (buraxılışına məsul akademik Ramiz Mehdiyev). 30 cilddə.4-cü kitab. Bakı, "Azərnəşr",2010. 491səh.səh.19.

2. Məmmədzadə İlham. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı,"Təknur", 2012, səh.64.

3 **Cəfərov Əfqan.** Xalqın həmişə yaşar unudulmaz lideri http://insan huquqlari.az/haber-559–xalqin–hemis–yasar-unudulmaz-lideri:html

Lakinson iyirmi-iyirmi beş illik obyektiv tədqiq bütün qərəzli, qeyri-elmi və qeyri-obyektiv iddiaları birdəfəlik kənara atdı. Fikrimizcə, bu səbəbdəndə tədqiq etdiyimiz problemfəlsəfi və ictimai fikir tariximizin ən aktual mövzularından biri olaraq qalacaq.

XX əsrin başlanğıcında, barışmaz ideya mübarizələri dövründə demokratik fikir ümummilli mənafeyə xidmət etdi. Bu, mütləq şəkildə millətin milli oyanışına, inkişaf və tərəqqisinə birbaşa xidmətlə bağlı olub, milli məfkurəyə sahib ola bilməyin zəruriliyini irəli sürdü.Demokratik fikrin ideyalarımillətin türk-islam mənəviyyatı ilə,"tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə bağlı"[1]olub, "türkçülük, islamçılıq və müasirlik prinsipləri üzərində yüksələn və müstəmləkə Şərqinin dirçəliş ideologiyası kimi səciyyələndirilən bu ideyalar qlobal məkanda zəruri idi"[2]. Bu, məzmunca, mahiyyətcə və formaca o zamana qədər atılmamış bir addım idi.Zamanın millətin fikir və düşüncəsinə gətirdiyiyenilikçi ideya və ideologiya imperiyaya qarşı mübarizədə onu birliyə səsləyirdi."Milli burjuaziya ilə mütərəqqi fikirli ziyalılıar arasında yaranmış həmrəliyin nəticəsində mənafe və əqidə birliyi siyasi hərəkat halına gələ bilmişdi"[3].

"Azərbaycan milli ideologiyasının əsasını təşkil edən islamlaşmaq, türkləşmək və müasirləşmək"[4] dır.Bu gün Azərbaycan Respublikasının dünyaya fəal inteqrasiyası şəraitində azərbaycançılıq ideologiyası çox önəmlidir. O, XX əsrin əvvəllərində Azərbaycan demokratik fikrininana xəttini təşkil etmişdir. Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması istiqamətində azərbaycançılıq ideologiyasını formalaşdırdı. "Həmişə fəxr etmişəm, bugün də fəxr edirəm ki, mən azərbaycanlıyam"[5],-deyən Heydər Əliyev bunu milli dövlətçilik ideologiyası kimi sistemləşdirərək, demokratik fikir xadimlərinə yüksək qiymət vermişdir ki,"Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"[6].

---

[1]Həsənov Əli. Heydər Əliyev və milli dövlətçilik təlimi- azərbaycançılıq 09.05.2010 www.xalqqazeti.com/az/news/politics/1353

[2]Azərbaycan fəlsəfəsi-Vikipediya https://az.wikipedia.org/wiki/Azərbaycan_fəlsəfəsi.

[3]Rüstəmova Afaq. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil". Bakı,"AFPoliqrAF",2017,s.76.

[4]Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış(II hissə). Bakı, "Elm və təhsil",2014.s30.

[5]Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 36-cı kitab. Çıxışlar, nitqlər, müsahibələr, məruzələr, fərmanlar (buraxılışına məsul akademik Ramiz Mehdiyev). Bakı, "Azərnəşr",2011.s..294.

[6]Aslanova Rəbiyət. Milli varlığın əbədiliyi, mənəvi dəyərlərin varlığı əbədiyaşarlığı qədərdir. "İlham Əliyev: iqtibaslar və təhlil". Bakı,"Azərbaycan",2006.s.294.

Çünki biz “heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik”[1].Bu gün azərbaycançılıq ideloğiyasını öz fəaliyyətində davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev **“**dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir”[2].

XX əsrin əvvələrində ideya axtarışlarıdövründə məhkum millətlərin milli-azadlıq hərəkatının özəyində müxtəlif milli ideyalar dayanırdı. Çünki müstəmləkədən qurtulmaq istəyən millətlər ilk növbədə öz milli ideyasını,sonra milli ideologiyasını müəyyənləşdirməli idi. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir bəy Hacıbəyli, Ömər Faiq Nemanzadə kimi “görkəmli şəxsiyyətlər milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərir”[3],dominant milli etnik birliyi soykökə bağlayırdılar. Köhnə, gerilikci düşüncə tərzi yaddaşlardan silinib atılır, dini görüşlərdən milli görüşlərə keçilirdi.

“Əli bəy Hüseynzadəni milli məfkurənin uçuruma getdiyi bir vaxtda Allah-Taala doğma xalqına xilaskar kimi bəxş etmişdir”[4].Xalqımızın həyatında ruslaşma və farslaşma siyasətinə qarşı türkçülükideyalarınınirəli sürülməsi tarixi zərurətdən doğurdu. O zaman Azərbaycan türkləri rus hökuməti tərəfindən hansı adlarla çağırılsa da, türk olaraq Rusiya tabeliyindəki böyük tarixi-coğrafi məkanda yaşayan türkdilli xalqların hamısının mənafeyi ilə bağlı götürülürdü.

Rusiyada 1905-1907-ci illər inqilabı oyanışa, milli özünüdərkə güclü təkan vermiş oldu. Milli burjuaziya ilə mütərəqqi fikirli ziyalılıar arasındakıhəmrəylik, mənafe birliyi, qısa bir zamanda Azərbaycanin siyasi həyatında qəti dönüş yaratdı. Bu, türkçülük ideyasının yaranması və formalaşmasına zəmin oldu. Bu dövrdəçoxsaylı qəzet və jurnallarda türkçülük ideyaları ardıcıl, sistemli şəkildə millətin oyanışına xidmət etməyəbaşlayırdı. Bu mənada 1905-1907-ci illərdə toplanmış Rusiya müsəlmanlarının qurultayları imperiya ərazisindəki türkdillimillətlərin

---

[1] “İslam sivilizasiyası Qafqazda” Beynəlxalq simpoziumda Azətbaycan Prezidenti Heydər Əliyevin nitqi. 09dekabr 1998-ci il.http://lib.aliyevheritage.org/az/9045952.html

[2]İlham Əliyev. “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi” Birinci Beynəlxalq Bakı Forumunun iştirakçılarına 18 dekabr 2012-ci il http://www.president.az/articles/6878

[3]http://www.president.az/articles/26711

[4]“Türk dünyasının böyük ideoloqu”-clb.azwww.clb.Az/files/mv/teze_Huseynzade.pdf ).

toplantıları idi. Onlardan irəli gələn ideyalar imperiyanıntürkdilli xalqlarının milli şüurunun, milli özünüdərkinin inkişafına yönəldilmişdi.

XX əsrin əvvəllərinədək ruslaşdırma və zorakı xristianlaşdırma siyasətindən əl çəkməyən imperiyanın məqsədi bütün türkdilli xalqların, o cümlədən Azərbaycan türklərinin birliyini uca tutacaq türkçülüyə əngəl olmaq idi.Millətimiz kənardan təbliğ edilən yad ideyalara, xüsusilə də ruslaşdırma və xristianlaşdırmaya güclü direniş göstərdi. Bunun başlıca səbəbi türkçülük ideyalarının bütün başqa yad ideoloji təsirlərdən daha güclü çıxa bilməsi oldu. Ona görə də ”Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti quruldu”[1].

İmperiyanın xalqımızın milli ruhunun sındırılmasına yönəlmişxristian-velikorus şovinizmi milli düşüncəni silkələyib ayıltdı, ona yavaş-yavaş milli mübarizənin mənasını anlatdı. Mustəmləkə siyasəti fərqli dili, dini olan xalqların fəaliyyət proqramlarını ortaya çıxarmasına səbəb oldu. Onu hazırlayanvə milli ideologiya səviyyəsinə yüksəldən mübariz ruhlu demokratik fikir xadimləri idilər. Onlar xalqın milli ruhunu milli ideologiya şəklində sistemləşdirib, milli-azadlıq uğrunda mübarizədə arxasınca apara bildilər.Bu, mahiyyətcə milli kimlik, milli varlıq, milli birlik uğrunda millətin açıq-aşkar mübarizəsi idi. Zaman rus istilasından XX əsrin əvvəllərinədək olan dövrdə unutdurulmağa çalışılan türklük düşüncəsini yenidən diqqət mərkəzinə çəkdi.

“Biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq",-deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirdi”[2]. Ulu öndərin ümumdövlət məfkurəsi səviyyəsinə yüksəltdiyiazərbaycançılıq ideyası da mahiyyət etibarilə milliliyin və bəşəriliyin təcəssümüdür. Heydər Əliyev XX əsr ziyalılarının əsərlərində “milli ideya kimi türkçülüklə paralel azərbaycançılığı dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı”[3].

**Problemin işlənmə dərəcəsi:** Müstəqilliyimizin əldə olunmasından sonra qlobal dünyamızda bizləri getdikcə daha çox düşündürən milli-mənəvi irsimiz olmuşdur. Fəlsəfi və ictimai fikir tariximizin görkəmli xadimlərinin

---

[1]https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_2018_ci_ilin Azerbaycan_Xalq_Cumhuriyyeti_Ili_elan_edilmesi_haqqinda_Serencam_imzalayib1127287

[2]Cəbrayılov Rafael.HeydərƏliyevvəazərbaycançılıqideologiyası;www.anl.Az/down/meqale/azerbaycan/2011/may/175824.htm

[3]Qarayev Əbülfəs: Azərbaycançılıq ideyası Ermənistanla informasiya savaşında güclütəbliğatsilahımızdır22.04.2016www.clb.az/files/mv/HeyderEliyev. PdfPDF file davam.az/26678-blfs-qarayev-azrbaycanlq-ideyas-ermnistanlainform).

təqdirəlayiq irsinin tədqiqi və təhlili problemin vacib şərtlərindəndir.Elə bu səbəblərdən də tədqiq etdiyimiz mövzu bu günümüzdə dəhərtərəfli araşdırmalar tələb etməkdədir. Mürəkkəb tarixi dövrdə yaşayan XX əsrAzərbaycan demokratik fikrinin görüşlərinin araşdırılması, tədqiqat obyektinə cəlb edilməsi çox vacibdir. Doğrudur, sovet dövründə bu probleminmüəyyən tərəfləri araşdırılmışdır. **Məmməd Cəfərin**"Hüseyn Cavid" (1960),"Azərbaycan ədəbiyyatında romantizm" (1963), **Kamal Talıbzadənin** "Azərbaycan ədəbi tənqidinin tarixi"(1984), "AbbasSəhhət" (1976),**ƏzizMirəhmədovun** "Sabir" (1958), "Azərbaycan Molla Nəsrəddini" (1980), "Azərbaycan ədəbiyyatına dairtədqiqlər(XIX-XX əsrlər) (1983),"Məhəmməd Hadi" (1985),**Abbas Zamanovun**"Əməl dostları" (1979), "Sabir gülür" (1981), "Sabir bu gün" (1985), **Məsud Əlioğlunun**"Məslək qardaşları" (1966), "Hüseyn Cavidin romantizmi" (1975), "Məhəbbət və qəhrəmanlıq" (1979), xüsusilə **Midhət Ağamirovun** ("Abdulla Şaiqin dünyagörüşü"(1982), "Məhəmməd Hadinin fəlsəfəsi" (1985) adları xüsusilə qeyd olunmalıdır. Bir sıra monoqrafiya[1] və dissertasiyalarda[2] isə Azərbaycan demokratik fikrinin dövlət idarəçiliyi haqqında irəli sürdükləriyeni fikirlər, Şərqdəki istibdad rejimlərini, Rusiyadakı mütləqiyyətin əksinə, demokratik əsaslara söykənən respublika idarəetmə prinsipləri işıqlandırılmışdır. Son illərdə Azərbaycan demokratik fikrində milli ideya və milli ideologiya problemi, tarixi irs, müstəqillik,dövlətçilik məfkurəsi- türkçülük, islamçılıq,azərbaycançılıq, problemə tarixi-fəlsəfi baxış, onun tarıxı ınkişaf yolu ilə bağlı bu sahədə bir sıra ciddi araşdırmalar aparılmışdır[3].Azərbaycan demokratik fikrində

---

[1]Ахмедов Э.М. Философия азербайджанского просвещения. Баку. Азернешр, 1983, 291 стр; Ахундова Э. Г. Реализм Джалила Мамедкулизаде. Баку,Язычы,1988,149стр; ГаджиевА. Азербайджанский реализм. Баку,Язычы,1984,240стр; Керимов Х.Ш. Экономическая мысль в произведениях М. А. Сабира- «Очерки истории азербайджанской экономической мысли». Под редак. Т.С.Велиева, Ю.М.Мамедова). Баку, Азернешр, 1987. с. 230-249.312 стр.

[2]Алекперов Я. А. Государственно- правовые воззрения Дж. Мамедкулизаде. Автореферат...канд. юридич. наук. Баку,1963,18стр; Вахидов Ф. К. Мировоззрение Омара Фаика Неманзаде. Автореферат канд. философ. наук. Баку, 1971, 21 стр; Касумов М. Р. Боевой революционно-сатирический журнал «Молла Насреддин» и его общественно-политическое направление (1906-1931 гг.) Автореферат доктор. историч. наук. Баку, 1965. 82 стр.

[3]Ramiz Mehdiyev "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" (Bakı,2001), "XXI əsrdə milli dövlətçilik" (Bakı,2003), "Milli məfkurə dövlətçilik, müstəqillik yolu ilə. I cild" (Bakı,2006), "Demokratiya yolunda: irs haqqında düşünürkən" (Bakı,2008), İlham Məmmədzadə "Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər"

cəhalətə, dini mövhumata qarşı qabaqcıl elm və maarif uğrunda mübarizə, dünyəvielmlərin təbliği, qabaqcıl dünyagörüşü formalaşdıranməktəblər açılması tələbi, gələcək nəslin təhsili, qızlar üçün tədrisin zəruriliyi, qadın təhsili problemləri, mənəvi-əxlaqi qaydalar, vətənpərvərlik, qadın azadlığı problemi, ana dilinin saflığı uğrunda mübarizə ideyaları tədqiqatlarda öz ifadəsini tapmışdır.

**Tədqiqatın obyekti və predmeti:**Dissertasiyanın obyektini tədqiq olunan dövr-XX əsrin əvvəllərindəki Azərbaycanın fəlsəfi irsi, fəlsəfi və ictimai fikir tarixi təşkil edir. O dövrün fəlsəfi və ictimai fikir tarixində demokratik fikrin mühüm xidmətləri bu günümüzdə belə danılmazdır və düşündürücüdür.Tədqiqatın predmetini isə göstərilən dövrdəki Azərbaycan fəlsəfi və ictimai fikrinintədqiqinin müasir durumu, aktual problemləri, perspektivləri, əhəmiyyəti təşkil edir.

**Tədqiqatınməqsəd və vəzifələri:**Əsas məqsəd və vəzifələr aşağıdakı kimi müəyyənləşdirilmişdir:

-Azərbaycancəmiyyətinin sosial-iqtisadi həyatındaəsaslı, köklü dönuş yaradan mülkiyyət münasibətlərinin öyrənilməsi;

-köhnə, mürtəce quruluşun atılması, gələcəyə, yeni aləmə can atmaq, köhnə dünyadan çoxuzaqlarda şanlıgələcəkarzularının açıqlanması, həm ideal, yeni, həm də ədalətli quruluşun tərənnüm olunmasının hərtərəfli, əhatəli tədqiqi;

-vətəndaşların şəxsiyyət azadlığı, hüquq bərabərliyi probleminin araşdırılması;

-mövcudrejimin açıq ifşası, azad istiqbalın gələcəyinə böyük inam, yeni ictimai quruluşun tərənnümünün tədqiqi;

---

(Bakı,2012), Əbülhəsən Abbasov "Milli maraqlar və milli ideologiya" (Bakı,2012), Əlikram Tağıyev "Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi" (Bakı,2000), İzzət Rüstəmov "Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli)" (Bakı, 2001), Yaşar Qarayev "Tarix: yaxından və uzaqdan" (Bakı,1996), "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər(İki min ili tamamlayan iki yüz il–XIX və XX yüzillər)" (Bakı,2002), "Min ilin sonu...(XXI əsr və Şərq dəyərləri)" (Bakı,2002), Afaq Rüstəmova "Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil" (Bakı,2017), Rafail Əhmədli "Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq" (Bakı,2007), "Azərbaycan dövlətçilik fəlsəfəsi" (Bakı,2008), Mübariz Süleymanlı "Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri)" (Bakı,2011), "Kulturoloji irsin tədqiqi problemləri (XX əsrin əvvəllərinin mənbələri əsasında)" (Bakı,2011), Nizaməddin Şəmsizadə "Azərbaycan ideologiyası" (Bakı,1996), "Azərbaycançılıq" (Bakı,2006), Faiq Ələkbərov "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış"(II hissə) (Bakı,2014), Afaq Məmmədova "XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında) (Bakı,2003).

-milli mənsubiyyət axtarışı, milli varlığın qorunması, milli kimliyin sübutu və ona sahib çıxmaq düşüncəsinin ən qiymətli miras kimi araşdırılması;

-azərbaycançılıq ideologiyasının işıqlandırılması, çağdaş dövrün tələbləri ilə səslənən bu ideologiyanın ümumbəşəri dəyərlərlə sintezi və inteqrasiyası kimiaraşdırılması;

-nəhayət, demokratikdövlət idarəçiliyiprobleminin tədqiqi, ona tarixilik və müasirlik mövqeyindən yanaşma;

-idarəçilik sistemində insanların demokratiyaya əsaslananxalq hakimiyyətinin və demokratikseçki sisteminin üstünlüklərinin açıqlanması, hərtəfli araşdırılması perspektivlərinin təhlili.

**Tədqiqat işinin elmi yeniliyi:** Bizə görə, millətin milliruhunun daşıyıcısı kimi,milli-mənəvi irsin, dəyərlərin qorunması, öyrənilməsi və layiqincə öyrədilməsi çox önəmlidir. Müstəqilliyimizin bərpasından sonra fəlsəfi və ictimai fikir tariximizdə belə tədqiqatlara ehtiyaclar çoxaldı. O, bu günümüzədək olmuş yanlışlıqlardan xilas ola bilməyimiz üçün zəruri idi. Azərbaycandemokratik fikrinin sosial-siyasi görüşləri müxtəlif aspektlərdən tədqiq və təhlil edilmişdir. İşin elmi yeniliyini müəyyən edən ilk növbədə problemin qoyuluşudur və tədqiqata cəlb edilmiş problem aşağıdakı müddəaları özündə əks etdirir:

-ilk dəfə olaraq demokratik fikrin sosial-siyasi görüşləri kompleks şəkildə nəzərdən keçirilmişdir;

-cəmiyyətin sosial strukturunda mülkiyyət münasibətlərinə təsir edən amillər, demokratik fikrin fəlsəfi irsi, sosial utopiyası təhliledilmişdir;

-şəxsiyyət azadlığı və hüquq bərabərliyi problemifəlsəfi aspektdə, elmi-praktiki baxımdan təhlil edilmişdir;

-işıqlı sabahlar naminə elmin, maarifin vacibliyi irəlisürülmüşdür;

-milli kimlik, milli varlıq, milli birlik uğrunda milli ideologiya ilə bağlı çağdaş dövrün tələbi kimi azərbaycançılıq-milli ideologiyamız müstəqil dövlətçiliyimizin mənafeləri konteksində araşdırılmışdır;

-demokratikidarəcilik formalarına müasir yanaşma millətimizin və milli dövlətçiliyimizin maraqları çərçivəsində tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları:**Dissertasiya mühüm nəzəri və metodoloji əhəmiyyətə malikdir. Tədqiqatın nəzəri əsaslarını irəli sürülən konseptual fikir və müddəalar, eləcə də bu sahədə fundamental elmi araşdırmalar və nəzəri konsepsiyalar təşkil edir. Dissertasiyanın yazılmasında Azərbaycan fəlsəfi fikir tarixindəki milli spesifika nəzərə alınmış, nəzəri, fəlsəfi vətarixi araşdırmaların elmi-məntiqi şəkildə vəhdəti həyata keçirilmişdir. Dissertasiyadametodoloji cəhətdən müasir tədqiqat

metodlarından, tarixi funksional, məntiqi-sistemli yanaşma, tarixi-müqayisəli təhlildən, həmçinin, nəzəri təhlil, elmi-fəlsəfi ümumiləşdirmə kimi tədqiqat üsullarından,elmi metodlardan və proqnozlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti:** 1900-1920-ci illərdəki zəngin fəlsəfi və ictimai fikir tariximizinaraşdırılmasında, ideya cərəyanlarının mübarizəsində, demokratik fikrin qanuni yerini bərpa etməkdətəqdim olunan dissertasiyadan geniş şəkildə faydalanmaq mümkündür.Dissertasiya materiallarının elmi müddəaları, aparılmış ümumiləşdirmələr və nəticələrdən elmi-praktiki baxımdan istifadə etmək əhəmiyyəlidir. Tədqiqat işininəldə olunmuş eimi nəticələrindən ali məktəblər üçün dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların hazırlanmasında bəhrələnmək olar.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun „Fəlsəfə və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir. Şöbənin 29 yanvar 2016-cı il tarixli iclasında geniş müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas məzmunu və elmi müddəaları müəllifin Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, Beynəlxalq və respublika konfranslarının materiallarında öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu:**Dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat işinin aktuallığı əsaslandırılır, aktuallığı şərtləndirən başlıca səbəb və amillər nəzərə çatdırılır, problemin işlənmə dərəcəsi öyrənilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, nəzəri-metodolji bazası müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası göstərilir.

Dissertasiyanın birinci fəsli"**XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin sosial-iqtisadi inkişafı probleminə nəzəri baxış**" adlanır.Bu fəslin "**Cəmiyyətin sosial strukturundaziddiyyətlərin mülkiyyət münasibətlərinə təsirinin fəlsəfi aspekti**" adlanan birinci paraqrafındagöstərilir ki, XX əsrin əvvəllərində**c**əmiyyətin yeniləşməsi uğrunda başlanan demokratik hərəkat onun düşüncə tərzinə daha kəskin mübarizlik gətirdi.Demokratik fikir çarizmin milli-müstəmləkə siyasətini ifşa edir, xalqı sosial-siyasi, mənəvi azadlığa səsləyir, xoşbəxt gələcəyə ruhlandırır,cəmiyyətinyenilənməyə möhtac olduğunu vurğulayırdı. Fikrimizcə,Azərbaycan fəlsəfi və ictimai fikir tarixində dövrün gerçəkliyini əks etdirən Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Cəlil

Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəylinin, Ömər Faiq Nemanzadənin, romantiklərdən Məhəmməd Hadinin, Hüseyn Cavidin, Abbas Səhhətin, Abdulla Şaiqin xüsusi yeri vardır.

Demokratik fikir mülkiyyət münasibətlərinə xüsusi diqqət yetirirdi. Azərbaycanda kəndlilər əhalinin çox böyük əksəriyyətini təşkil etsələr də, torpaqsız və aztorpaqlı olduqlarından amansızcasına istismar edilir, dəhşətli fəlakət içərisində yaşayırdı.Mülkiyyət sahibləri bu dövrdə daha yüksək mənfəət əldə etməyə çalışırdı. Sosial həyatın bütün sahələrinə güclü nüfuz edən kapitalizm sürətlə kənd təsərrüfatına da daxil oldu və kəndi əmtəə tədavülünə cəlb etdi. Kəndli təsərrüfatı natural xarakter daşıyırdı. Pulun, kapitalın kənd təsərrüfatında dağıdıcı, pozucu təsiri sosial təbəqələşməni daha da gücləndirdi, kəndlinin maddi vəziyyətini, güzəranını ağırlaşdırırdı. Kəndli mülkədara vergiləri vaxtında verməyə məcbur edilirdi. O, həm vergi verir, həm də töycü ödəyirdi. Demokratik fikir  xalqın amansızlıqla qarət olunması ilə barışmırdı.

Fikrimizcə, onlar  qədər heç kim kəndi səfalətdə saxlayan ictimai bəlalarıbu qədər aydınaçıb göstərməmişdir. Bu dövrdə Azərbaycan kəndlisinin əsas vergiləri bunlar idi: “1. Malcəhət-torpaq sahibinə məhsulun müəyyən hissəsinin keçirilməsi; 2. Hərbi xidmət vergisi-orduya səfərbərlik əvəzinə çar müstəmləkəçiləri azərbaycanlıların üzərinə xüsusi vergi qoymağı qərara almışdılar; 3. Töycü-kəndlilərdən il ərzində yığılan vergi; 4. Biyar-kəndlilərin mülkədarlar üçün məcburi və ödənişsiz icra etdikləri mükəlləfiyyətlər; 5. Çöpbaşı-örüş pulu; 6. Köçərilərdən pul ilə alınan vergi”[1].

Demokratik fikir cəmiyyətdən söhbət açmaq istəyərkən qış fəslinə müraciət edir, təbiət və cəmiyyət hadisələri üzvi surətdə əlaqələndirilir.Çünki əməkçiinsanlardan müxtəlif vergilər toplanması qış fəslində aclığa gətirib çıxaran başlıca səbəblərdən biri kimi üstüörtülü şəkildə açıqlanırdı. Demokratik fikirdə baharın gətirdiyi gözəlliklər fonunda xalqın, millətin faciəsi daha qabarıq şəkildə ifadəsini tapırdı. Bunun sosial-humanist məzmunu isə belə idi: əməkçi insanın-kəndlinin, rəncbərin, əkinçinin təbiət gözəllikləri fonunda təsvir olunması ilə onlar göstərmək istəyirdilər ki, cəmiyyəti bütün maddi nemətlərlə təchiz edənlər aclıqda, soyuqda, səfalətdə yaşamağa məhkum olunmuşdu

1906-1907-ci illərdə Zəngəzurda quraqlıq baş verdi, çar hökumətinin qızışdırdığı və erməni millətçilərinin türk-müsəlmanlara qarşı törətdiyi milli

---

[1]Alıyev İsa, Səməndərov Seyfəddin. XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin vergi mükəlləfiyyətləri ilə əlaqədar dəyərləndirmələri. “Azərbaycan vergi jurnalı”, 2012 №3,s.5

qırğın siyasəti nəticəsində Azərbaycanın aclıq çəkən bölgələri ilə digər ərazilər arasında əlaqələr pozuldu,gediş-gəliş kəsildi, iğtişaşlar başlandı. Bunu çoxdan gözləyən hökumət dairələri aclıq çəkən əhaliyə yardım göstərmək əvəzinə iğtişaşların törənməsindən sui-istifadə edərək, həmin bölgələrə cəza dəstləri göndərdi.

Demokratik fikir müqəddəs Novruz, Ramazan, Qurban bayramları haqqında zəngin mənəvi irs qoymuşdur. Tarixin yüzillər, minillər boyu ağır sınaqlarından süzülüb gələn, şanlı keçmişimizdən bizə miras qalan, milli-mənəvi xəzinəmizin bəzəyi, müstəqilliyinə qovuşmuş xalqımızın böyük təntənə və şadlıq içərisində keçirdiyi müqəddəs bayramlarımız sovet rejimində qadağa dövrünü yaşamışdır. Halbuki hər zaman gündəlik həyatımızın bəzəyinə çevrilmiş bayram günlərindəki şənliklərdə xalqımız özünün bütün arzu və istəklərini ifadə etmişdir.

İlk fəslin **“XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində humanizm ideyalarının formalaşması”**adlı ikinci yarımfəslində demokratik fikrin romantikası zülmə qarşı dözümsüzlüyün nümayişinə çevrilir, əsl vətəndaş tərbiyə edib yetişdirmək başlıca vəzifə olaraq irəli sürülür.Romantiklər “cənnət kimi cahan” arzusuyla əzab-əziyyət, hüquqsuzluq içərisində boğulan insanların çarəsiz vəziyyətdə yaşamalarına sıxılırdılar. Onlar vətənin, millətin xilası üçün çarə axtarır, belə həyatdan qaçıb uzaqlaşmaq istəyir, acı həqiqətdən şirin xəyal aləminədəkromantik aləmi canlandırır, xəyalən elə aləmlərə çəkilirdilər ki, ora zülmdən uzaq olsun. Nəhayət,səmalara, göylərə, cənnət aləmlərə çəkilib getməklə sanki rahatlıq tapır, azad nəfəs çəkirdilər. Onlar düşünürdülər ki, məhz belə aləmlərdə fəlakətdən, əsarətdən heç bir ələmət yoxdur.

Romantiklər keçmişdən, bugündən və gələcəkdən tez-tez söhbət açırdı. Hər dəfə onlar üçün keçmiş artıq tarixə dönmüş, bugün isə artıq yazılmaqdadır, yəni o da yaxın zamanda keçmişə dönəcəkdir. Ancaq hələ də kəşf olunmamış, sirli görünən bir aləm vardır ki, onların reallaşması artıq sabahın açılmasına bağlıdır. Sabahın gəlişi isə bir çox müşkil sualların, anlaşılmaz aləmlərin açarıdır.

XX əsrin gətirdiyi yeniliklə fəlsəfi və ictimai fikir tariximizə yeni ruh, yeni nəfəs gəldi. Fikrimizcə, Sabirin və Hadinin ideal, xoşbəxt, firavan,gələcək azad cəmiyyət haqqındakı təsəvvürlərinin paralel tədqiqi təqdirəlayiqdir. Onların cəmiyyətə iki müxtəlif baxışı göylərə də bir-birindən fərqli iki cür üz tutmasına gətirib çıxarır. Romantikası mövcud həyatdan ayrılmayan, arzu və ideallarını real həyatda tapa bilməyən Hadihəsrətinin gerçək ola biləcəyi azad, gözəl səmaya, göylərə, asimanlara üz tutur. Millətin elmin ziyası ilə cəhalətdən xilas ola biləcəyini təsdiqləyən

Sabir isə xalqın məktəbsiz qaldığı zamanda bunları gerçək olmayan xam xəyal hesab edir.
Millətin elmin ziyası ilə cəhalətdən xilas ola biləcəyi fikrini təsdiqləyən Sabiröz-özünə gələcək istiqbala inanmır, ölkənin məktəbsiz, xalqın övladlarının cəhalətdə qaldığı zamanda, şübhəsiz, bunları gerçək olmayan xam xəyal hesab edib, ona gülür, mütləq dövranın dəyişməsifikrini irəli sürür. Gəldiyimiz obyektiv nəticəyə görə, Hadinin parlaq istiqbalı ilə Sabirin lağlağ istiqbalı arasındakı başlıca fərq mücərrəd xəyalla real xəyal arasındakı fərqdən ibarətdir.

1905-1907-ci illər inqilabı dövründə romantiklər cəmiyyət həyatında baş verən hadisələrin əsl mahiyyətini dərk etməkdə çətinlik çəkirdilər. Bu illərdə onların tərəddüdləri, aldanışları olsa da, inqilab romantiklərin hamısının baxışlarında kəskin dəyişmə yaratdı, onların yaradıcılıq tərzini yeniləndirdi. Onlar insanlara azadlıq bəxş etdiyinə görə inqilabı alqışlayır, bütün "suali-müşkül"lərin həllini istiqballa bağlayır, gec-tez bəşərin xoşbəxt gələcəyə qovuşacağına möhkəm ümid bəsləyir, qanlı irticaya söykənən, zorakılıqlardan çəkinməyən idarə-üsulu, sosial mühiti bəyənmədikləri üçün qəbul etmirdilər.

Dissertasiyanın**"Demokratik cəmiyyət, vətəndaş hüquqları və azadlıqları problemi"** adlanan ikinci fəslinin ilk yarımfəsli **"Vətəndaşların şəxsiyyət azadlığı və hüquq bərabərliyi məsələsində sosial-siyasi amil"** adlanır. Demokratik fikir millətinə müraciətdə "müsəlman qardaşlarım,"[1]özünü "türk oğlu, müsəlman balası"[2],"türk oğlu türk"[3] adlandırmışdı. O, XIX əsrdən həqarətlə "tatar", sonralar isə "Zaqafqaziya tatarları", "Qafqaz müsəlmanları" çağırılan, əslində türk olan xalqımızın-millətimizin milli qürurunu ifadə edirdi.O, müstəmləkə rejimində millətinin aciz vəziyyətdə saxlanılmasına qarşı çıxır, milyonlarla insanların qəlbinə, ruhuna yol tapmağa çalışır,ümummilli mənafeyə xəyanət edən cahil, milli qeyrətdən, dindən, imandan məhrummollaları haqlı olaraq "millətin düşməni" adlandırıdı.

Demokratik fikir millətin gələcəyini düşünərkən uzaq-yaxın tarixə müraciətləgöstərirdi ki, müxtəlif dönəmlərdəbizləri yox etmək istəyənlər bugün millətimzin içərisində ittifaqı-ittihadı yox edib, onun qəlbinə iyrənc

---

[1] Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli). Bakı, "Öndər", 2004, IIc,s.4.
[2]Səhhət Abbas. Seçilmiş əsərləri. Tərtib edəni, ön söz və izahların müəllifi Kamal Talıbzadə). Bakı, "Lider", 2005. s.64.
[3] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı, "Şərq- Qərb", 2007.s.41-69.

ixtilafı, təfriqəçiliyi yeritməyə çalışırlar.Deməli, bütövlükdə millətimilli-mənəvi dəyərlərdən məhrum edən, daim geriyə, keçmişə çəkən cəhalətonu xoşbəxt gələcəkdənməhrum qoyur, müasirliklə ayaqlaşmasına maneçilik törədirdi.

Demokratik fikir Rusiya imperiyasının işğalı altındakı bütün türk-müsəlman xalqlarının hamısını vahid bir ideya ətrafında birləşdirməyin zəruriliyini vurğulayır, bu, onun milli və dini birlik ideyasının mayasını təşkil edirdi. Onlar sələflərinin sağlam əqidə-ideya baxışlarını davametdirir, millətini bütöv görmək üşün qüvvələriini səfərbər edir, milli birlik ideyasını milli istiqlal savaşının ana xəttini təşkil etdiyinigöstərirdilər.

Təbii oaraq bütün bunlar XX əsrin əvvəllərində demokratik fikri dərindən düşündürən ictimai-fəlsəfi düşüncənin əsas narahatlıq hədəfi idi. Burada şəxsiyyət azadlığı və hüquq bərabərliyi problemi qırmızı xətlə keçən bir ideya idi. Onlar bu problemi yeni fikirlərlə zənginləşdirərək insanın şəxsiyyət azadlığını irəli sürürdü. Bu isə cəmiyyətdə azad insana, onun tarixi dəyişdirici roluna yeni mütərəqqi bir baxış idi.

Rusiya imperiyasında yaşayan başqa türk-müsəlman xalqları kimi, xalqımız da qəti qərarını verib hüquq bərabərliyinə qovuşmaq üçün ayağa qalxmışdı, çünki çarizm türk-müsəlman xalqlarının qəddar düşməni idi. Bildirilirdi ki, yalnız azad vətəndə şəxsiyyət azadlığı mümkün ola bilər, çünki azad cəmiyyətdə ölkənin azad vətəndaşları yaşayırlar. Azad cəmiyyət və orada insanın-vətəndaşın şəxsiyyət azadlığı, hüquq bərabərliyi Azərbaycan romantiklərinin ən böyük idealı idi. Onlar ülvi, bəşəri varlıq kimi insanın taleyinə heç zaman biganə qalmamış, onun bu qaranlıq mühitdə çəkdiyi iztirabları, mənəvi əzabları, sıxıntıları qorxmadanbütün reallığı ilə təsvir etmişlər.

XX əsrin əvvəllərində qadın azadlığı problemi demokratik fikri məşğul edən ən mühüm problemlərdən idi. Bu dövrdə sosial-siyasi həyatdan tamamilə təcrid olunmuş qadın mənəvi əsarətdə yaşayırdı.Avropa tarixinə nəzər saldıqda, avropalı qadınların kişilərlə çiyin-çiyinə Vətənlərini və millətlərini düşmənlərdən qorumaq üçün əsgər paltarı geyərək, qorxmadan odun-alovun içərisinə atıldıqlarının şahidi oluruq. Demokratik fikir hər zaman olduğukimi, yenə də qadın-ana hüququnun müdafiəçisi olub, onları köləliyin zəncirindən, qaranlıq zülmətdən xilas etməyə çalışırdı. Oadın azadlığına sosial məna verib, onun insanlıq ləyaqətiuğrunda çarpışan, cəhalət, mövhumatdan qurtarmağa çalışan demokratik fikir qadın hüquqsuzluğunu tənqid atəşinə tuturdu.

İkinci fəslin ikinci yarımfəsli **"XX əsrin əvvəllərində Azərbaycanda elm və maarifin inkişafına təsir edən sosial-siyasi şəraitin fəlsəfi analizi"**

adlanır. Elmin, maarifin və məktəbin sosial tərəqqidə rolunu anlayan mütləqiyyət rejimi müsəlmanlar üçün dünyəvi məktəblər açılmasına düşməncəsinə yanaşırdı. Tədqiqatlar sübut edir ki, şəhər və kəndlərdə hökümətin məktəblər açmasında gizli, mənfur niyyətləri gizlənmişdi. Çarizm xalq maarifinə düşmən münasibət bəsləyir, müstəmləkəçi qullar hazırlamağı planlaşdırır, xalqı elm və maaarifdən uzaq saxlayır, məktəblər açılmasına biganəlik göstərirdi. Hər cür sosial və mənəvi zülm altında əzilənxalq, ilk növbədə, özehtiyaclarından xəbərdar olmaq üçün elmə, maarifə yiyələnməli idi.Əsrin kəskin ideya-siyasi mübarizələri dövründə xalqın milli şüurunu, milli özünüdərkini və milli birlik ideologiyasını formalaşdıran başlıca amil maarifçilik idi.

Rusiya imperiyasının maarif sistemində ibtidai, orta və ali məktəblərdə təhsil alanlar içərisində türk-müsəlman, o cümlədən azərbaycanlı uşaqların sayı digər millətlərdən xeyli az idi. Demokratik fikir dövrün ən aktual, qızğın mübahisə doğuran qadın təhsili problemini mətbuat səhifələrindən düşməyə qoymurdu. O, qadınların maariflənməsini cəmiyyətinsosial fəallığının artması, mədəni tərəqqisi ilə sıx bağlayırvə demokratik hüquqlar uğrunda mübarizədə səy edirdi ki, qadınlar təhsilə cəlb olunsunlar. XX əsrin əvvəllərində onların yaradıcılığındaqızların, qadınların acı taleyi, qadın azadlığı, qızların təhsili və tərbiyəsi, hüquq bərabərliyi təsvir olunurdu.

Demokratik fikir haqlı olaraq, dövrün ən aktual problemi kimi, qadın təhsilini-qadınların maariflənməsini, təhsilə, elmə yiyələnməsini cəmiyyətinsosial fəallığının artması, mədəni tərəqqisi ilə sıx bağlayırdı. Onların yaradıcılığındaqızların, qadınların acı taleyi, qadın azadlığı, qızların təhsili və tərbiyəsi, hüquq bərabərliyi təsvir olunurdu. Dövlət məktəblərində dərslər rus dilində tədris olunurdu. Uşaqlar üçün zərərli, öz dövrünü çoxdan keçirmiş dərsliklərin tədrisinə son qoymaq vaxtı gəlib çatmışdı.Lakin bu dövrdə Azərbaycan dilindəki dərsliklər, dərs vəsaitləri və proqramlar yox idi.. Həyatın və zamanın tələbləri ilə ayaqlaşacaq ana dilli dərsliklərin yaradılması vacib idi, Lakin çətin də olsa, ana dilində həm dərsliklər, dərs vəsaitləri, həm də qiraət-oxu kitabları tərtib olunmağa başlandı.

Bu dövrdə elmlə dinin qarşıdurması daha da kəskinləşdi, dini, yoxsa dünyəvi elmlərin öyrənilməsi məsələsi ətrafında diskussiyalar başlandı. Ruhanilərə görə, yalnız ilahiyyat insanı insan edə bilər, Ə.Hüseynzadə isə həm dünyəvi, həm də dini elmlərin öyrənilməsini zəruri sayırdı.Ruhanilərin uydurma rəvayətlərini, qayırma hədislərini təkzib edən, milli mənafeləri, vətənin gələcək istiqlalını hər şeydən uca tutan demokratik fikir islam əxlaqının avam camaata sadə, asan izahını verirdi. Demokratik fikrə görə,

mollalar türk-müsəlmanlara islam həqiqətlərini öyrətməli, bunları avam müsəlmanın sadə dildə başa düşmələrinə çalışmalı idilər.

Dissertasiyanın **“1900-1920-ci illərdə Azərbaycanda milli dövlətçilik və istiqlalçılıq ideyaları”**adlanan üçüncü fəslinin birinci yarımfəsli **“Dövlət idarəçiliyi formaları və hakimiyyət probleminə sosial-siyasi yanaşma”**adlanır. Demokratik fikirdə idarəcilik haqqında baxışlar olduqca aktual səslənir, çünki onların dövlət quruluşu haqqındakı ideya irsi bütövlükdə mütərəqqi baxışlarla zəngindir. Demokratik fikir dövlət idarəçiliyini ən mühüm sosioloji prinsip kimi, qətiyyətlə irəli sürmüş, mütləqiyyətə qarşı mübarizədə xalqı demokratik respublika yaradılması uğrunda qələbəyə səsləmişdir.Sosial həyatın real mənzərəsi və inqilabi atmosfer demokratik fikrindünyagörüşünü daha ardıcıl şəkildə formalaşdırırdı.

Onlar dövlətin ilahi mənşəyi haqqındakı müddəaları rədd edir, sübut edirdilər ki, tarixin müəyyən inkişaf mərhələlərində dövlətə ehtiyac olmamışdır. Lakin dövlət cəmiyyət üçün heç də göydəndüşmə olmamış, tarixi zərurətdən cəmiyyətin özü tərəfindən onun yaşamasının, mövcudluğunun zəruriliyi üçün törəmişdir O, mövcud quruluşun zorakı yolla devrilməsi, hökümətlə hər cür kompromisdən imtina edilməsi tələbi ilə çıxış edirdi. Lakin demokratik fikir mütləqiyyətə, despotizmə və dini fanatizmə qarşı mübarizədə zorakı tədbirləriirəli sürürdü, çünki mütləqiyyət qaldıqca xalq sosial-siyasi və mənəvi-ideoloji zülmdən xilas ola bilməzdi.

Demokratik fikirdə xalq hakimiyyəti ideyası aparıcı yer tuturdu. Onların təsəvvüründə “xalq hakimiyyəti” dedikdə, demokratik respublika-“cümhuriyyət idarə üsulu” nəzərdə tutulurdu. Bu yeni tipli dövlət-demokratik respublika daha mürtəce quruluş olan mütləqqiyyət monarxiyası məhv edilməyincə yarana bilməzdi. Mütləqiyyət, monarxiya idarə üsulu təbəələr üzərində istismarı əbədiləşdirmək üçün xalqı bütün ixtiyardan, vətəndaş hüquq və azadlıqlarından tamamilə məhrum edirdi.

Belə dövlətlərdə ölkənin padşahı hökümət ilə birlikdə bütün ölkə vətəndaşlarını itaətdə və əsarətdə saxlayır, xalqın mənafeyi müdafiə olunmur, camaat bütün hüquq və ixtiyaratdan tamamilə məhrumdur. Demokratik fikir konstitusiyalı dövlət idarəçiliyini demokratik idarə üsulu hesab edərək, belə dövlətlərdə xalqın dövlət işlərində iştirakının böyük əhəmiyyəti olduğunu göstərirdi. Konstitusiyalı dövlətlərdə camaat öz nümayəndələri vasitəsilə dövlət işlərində iştirak edir.

Azadlıq hərəkatına qarşı ikiüzlü siyasət yeridən çar hökuməti 1905-ci il oktyabrın 17-də manifest imzaladı, xalqa bir sıra azadlıqlar, o cümlədən qanunverici duma çağıracağını vəd etdi. Demokratik fikir çarın duma siyasətinin əsl mahiyyətini düzgün dərk edir, onun kütlələri aldatmaq məqsədi

güddüyünü bildirir, mürtəce mahiyyətini tənqid edirdi. Dumaya seçkilər əmlak senzi əsasında keçirilməyə başladı və bütün Rusiya vətəndaşlarının hamısı seçki hüququ ala bilmədi. Dövlət Şurası dumanın qəbul edəcəyi qanunların gücünü azaltmaqla onun hüquqlarını məhdudlaşdırdı, çünki duma yalnız xalqı aldatmaq, onu mübarizədən yayındırmaq məqsədi güdürdü.

Demokratik fikirdə xalq hakimiyyəti ideyası aparıcı yer tuturdu. Onlar üç cür dövlət quruluşunun mövcudluğu göstərirdilər: mütləq monarxiya, konstitusiyalı monarxiya və respublika. İstibdad rejimində imzalanan qanunlar sosial mahiyyətinə görə xalqa zidd idi. Burada ölkənin padşahı hökümətlə birlikdə ölkə vətəndaşlarını itaətdə saxlayır, xalqın mənafeyi müdafiə olunmudu.

Demokratik fikir konstitusiyalı dövlət idarəçiliyini demokratik idarə üsulu hesab edir, onun təşkili prinsiplərini açıqlayırdı. Konstitusiyalı dövlətlərdə camaat öz nümayəndələri vasitəsilə dövlət işlərində iştirak edir.Belə idarəçilik prinsipi bütövlükdə seçkilər vasitəsilə mümkün olurdu. Yəni, xalq onun mənafeyini təmsil edən adamları məclisə seçib göndərə bilərdi. Onlar da xalqın mənafeyini güdən qanunlar qəbul edilməsinə var qüvvələri ilə çalışar, xalq da seçdiyi millət vəkillərinin arxasında dayanıb, müdafiə edər.

Bu fəslin ikinci yarımfəsli **"Cümhuriyyət idarəçiliyində demokratik seçki sisteminə fəlsəfi baxış"** adlanır.Rusiyada Fevral inqilabının qələbsindən sonra üç yüz illik Romanovlar səltənəti devrildi və çar mütləqiyyətinə son qoyuldu. Müstəmləkə zülmü altında inləyən xalqlara azadlıq gətirən bu inqilabın müjdəsi ilə göz aydınlığı verilirdi. Yeni idarəçilikdə-respublika quruluşunda xalqın iradəsini ifadə edən yeni qanunların verilməsi və bütün cəmiyyət üzvlərinin yuxarıdan tutmuş aşağıyadək bu qanunlara əməl etməsinin təmin edilməsi-demokratik respublika quruluşunun ən başlıca vəzifəsi sayılırdı.

Camaatın, xalqın gücü ilə müstəbid hökmdarların devrilməsindən sonra məşrutiyyət-cümhuriyyət elan edilməsi ilə xalq hakimiyyəti yaranır. Bunnula köhnə dövlət quruluşu ilə birlikdə onun köhnə qanunları da məhvə məhkum olur, çünki tərəqqi, inkişaf əsri olan XX əsrdə təbii proseslərin inkişaf qanunauyğunluqlarına görə çox mühafizəkar olan mürtece monarxiya quruluşu ömrünü başa vurmalı idi.

Keçmiş sosial qurulşa, köhnə idarəçilik sisteminə bəzək-düzək verməklə, başqa sözlə, yamaq vurmaqla yeni qanunlar hazırlayıb qəbul etməklə bu quruluşun mahiyyəti dəyişməz, o, yenilənməz və yerini yeni dövlət quruluşuna verməz, onunla əvəzlənə bilməz. Yeni qanunların qəbulu dövlət quruluşunun özünün yenilənməsi, təzələnməsi və yeni idarəçilik sisteminin

yaranması ilə bağlıdır. Yoxsa köhnə sistemdə yeni qanunların qəbul edilməsi ilə adama elə gələr ki, köhnə idarə üsulu təzələndi.

Demokratik fikir xalq hakimiyyəti ideyasını irəli sürür, idarəçilik prinsiplərini açıqlayırdı. Yeni idarəçilikdə-respublika quruluşunda xalqın iradəsini ifadə edən yeni qanunların verilməsi və bütün cəmiyyət üzvlərinin bu qanunlara əməl etməsi-demokratik respublika quruluşunun ən başlıca vəzifəsi sayılırdı. Burada prezidentli respublika müdafiə edilir. Respublikanın başçısı olan prezidenti ya xalq özü azad seçki yolu ilə seçir, ya da parlament-əhalinin seçib ayırdığı millət vəkillərinin-xalqın nümayəndələrinin içərisindən təyin edir. Prezident ölkə-parlamenti qarşısında cavabdehlik daşıyır. Yəni, parlamentə xalqın seçdiyi elçilərə-millət vəkillərinə hesabat verir.

Respublika idarəçiliyində hakimiyyətin başlıca göstəricilərindən biri demokratik seçki sistemidir və xalq bu işdə yüksək fəallıq nümayiş etdirməlidir. Bu işin demokratik qaydada, qanunvericiliyə uyğun şəkildə həyata keçirilməsinə camaat özü nəzarət etməli, həm də seçki işinin yaxından iştirakçısı olmalı idi. Hökümətin parlament qarşısında məsuliyyət daşıdığı ölkələrdə hökümətin fəaliyyət proqramı millət vəkilləri tərəfindən qəbul edilərdisə, onda hökümət təşkil olunur və fəaliyyətə başlayırdı. Əgər millət vəkilləri hökumətə etimadsızlıq göstərsəydilər, onda hökümət istefa verir, yeni hökümət kabinəsi təşkil olunurdu.

Xalq hakimiyyətinin başlıca vəzifəsi bütün cəmiyyət üzvlərinin iradəsini ifadə edən, onun mənafeyinə xidmət edən yeni qanunların işlənib hazırlanması və qəbul edilməsidir. Xalq keçmiş idarəçilikdən imtina edir, üzərində köhnə qanunları da onunla birlikdə dəfn edir, onun mənafeyini təmsil edən yeni qanunlar yaradılır. Yeni quruluşda vətəndaşlar köhnə qanunlardan cəmiyyətin xeyri üçün istifadə edə bilməzdi. Bu, çürümüş, köhnəlmiş əşyaya hər tərəfdən yamaq vurmağa bənzəyirdi. Halbuki bu faydasız bir şeydir. Köhnə idarəçilik sisteminə yamaq vurmaqla-yeni qanunlar hazırlayıb qəbul etməklə bu quruluşun mahiyyəti dəyişməz, o, yenilənməz. Yeni qanunların qəbulu dövlət quruluşunun özünün yenilənməsi və yeni idarəçilik sisteminin-xalq hakimiyyətinin yaranması ilə bağlı olur,

Respublika qurulşu demokratik seçki sisteminə əsaslanır. Burada vacib şərt ümumi seçki hüququdur, yəni irqindən, dinindən, millətindən, sinfindən, cinsindən asılı olmayaraq bütün ölkə vətəndaşlarının hamısının seçkilərdə iştirakının təmin edilməsidir. Bu, qanun qarşısında bütün vətəndaşların həqiqi, real ümumiliyinin ifadəsidir. Bu halda ölkə vətəndaşları seçki sistemindən kənarda qalmırdı. Halbuki respublika idarəçiliyndə demokratik seçki sistemi müstəqil olmayan, çoxpilləli, mərhələli seçki sistemini qəbul etmir, demokratik, bilvasitə, müstəqim seçki hüququ irəli sürülür. Bu prinsip həyata keçirilərkən seçicilər aydın şəkildə,

açıq-aşkar yerli özünüidarə orqanlarından tutmuş ali orqanlara-millət məclisinə qədər millət vəkillərinə səs verilməsini, onların seçkisi zamanı kimlərin, hansı orqanlara nümayəndə seçilməsini və kimləri seçdiyini bilir. Ona görə də müstəqim seçki sisteminin üstünlüyü şəhr edilir.

Demokratik seçki sistemində ümumi, bərabər və müstəqim seçkidən sonra bəlkə də, əsas şərtlərdən biri məhz gizli səsvermə prinsipidir. Millət məclisinə xalq nümayəndələrinin açıq səsverməyə nisbətən daha üstün sayılan və məxfiliyi qorunan, mühafizə edilən gizli səsvermənin mühüm üstün cəhətlərini göstərən demokratik fikir bunu əsaslandırırdı. Bu, çox mütərəqqi bir hadisə idi və böyük əhəmiyyət daşıyırdı.

Ümumxalq idarəçiliyində-respublika quruluşunda vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi dövlətin xalq qarşısında, cəmiyyət qarşısında ən yüksək-ali məqsədi hesab edilir. Demokratik fikir respublika quruluşunda vətəndaşların sahib olacaqları azadlıqları göstərir. Bunlar cümhuriyyət idarəsinin "zinəti", onun ən "vacib əsasları" sayılırdı.

Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalə vətezislərində öz əksini tapmışdır:

1. XX əsr Azərbaycan demokratik fikri azad cəmiyyət və azad insan haqqında// Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası. 2011, № 1(37), s.112-115.

2. XX əsrin əvvəllərində Azərbaycanın istiqlal mübarizəsində milli burjuaziyanın yeri və rolu haqqında // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası. 2012, № 2(47), s.48-52.

3. Qloballaşan Qərblə Şərqin mədəni-mənəvi dəyərlər sistemində yüksək ailə dəyərlərimizin yeri və rolu haqqında/ "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf". Beynəlxalq konfrans materialları. 21-22 dekabr 2012. Bakı, 2012, s.63-65.

4. XX əsrin əvvəllərində Azərbaycan demokratik fikrində qadın təhsili və qadın azadlığı problemi / "Təhsilin gender aspektləri" Respublika Elmi Konfransının materialları, Bakı , 2013, s.116-121.

5. XX əsrin əvvələrində (1900-1920) Azərbaycan demokratik fikrində milli məfkurənin tarixi inkişaf proesi: yeniliklə köhnəlik, ənənə ilə müasirlik probleminə yeni baxış// Naxçıvan Dövlət Universisteti. Elmi əsərlər. İctimai elmlər seriyası. 2013, №2(53), s.104-110.

6. XX əsrin əvvəllərində (1900-1920) Azərbaycan demokratik fikrinin zəngin yaradıcılıq irsi xalqın qan yaddaşına və Vətənə xidmətin parlaq simvoludur// Naxçıvan Dövlət Universisteti. Elmi əsərlər. İctimai elmlər seriyası. 2014, №9(65), s.119-125..

7. XX əsr Azərbaycan demokratik fikrində qadın təhsili probleminə müasir baxış/ "Təhsildə gender problemləri" Beynəlxalq Elmi konfransın materialları. Qərb Universiteti. Bakı, 02 dekabr 2014ci il, s.138-143.

8. XX əsrin əvvəlində (1900-1920-ci illər) Azərbaycan demokratik fikrində dünyəvi məktəb ("üsuli- cədid") problemi// Naxçıvan Dövlət Universisteti. Elmi əsərlər. Humanitar elmlər seriyası. 2015, №1(66), s.241-248.

9. XX əsrin əvvəlində (1900-1920) Azərbaycan demokratik fikrində mənfur erməni düşmənçiliyinin ifşası/ "Qafaqz tarixinin aktual məsələləri". Beynəlxalq konfrans. 15-16 oktyabr 2015-ci il, I hissə, Gəncə, 2015, s.62-65.

10.XX əsr (1900-1920) Azərbaycan demokratik fikrində xalqımızın milli kimlik problemi // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası. 2015, № 6(71), s

11.XX əsr Azərbaycan demokratik fikrində ruhanilərə münasibət. " Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası . Naxçıvan, NDU- "Qeyrət", 2016, № 6(75), s.80-87.

12.XX əsr Azərbaycan demokratik fikrində xalqımızın milli birlik problemi // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası. Naxçıvan, NDU- "Qeyrət",2016, № 5(79),s.145-152.

13.Проблема важности наук в Азербайджанской демократической мысли в начала XX века(1900-1920гг.)// Вестник Новосибирского Государственного Университета. Серия: История, Филология, Философия, 2016 Том 16, выпуск 3, стр.97-103.

**БАГИР ГАМИД оглы БАБАЕВ**

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ МЫСЛИ НАЧАЛА XX ВЕКЕ (1900-1920гг)


### РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, шести параграфов, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность темы диссертации, степень ее разработанности, раскрываются цели и задачи,научная новизна, теоретическаязначимость, методологические основы исследования и егопрактическаязначимость, сведения об апробации полученных результатов.

Первая глава диссертации называется «Теоретический взгляд на социально-экономическое развитие общества Азербайджана в начале XX века». В нейотмечается, что в этот период азербайджанская демократическая мысль находится на вершине истории нашей литературно-художественной, философской и общественной мысли. Подчеркивается важность единения нарола,рассматриваются освобождения от социальных бед.Демократическая мысль вела активную борьбу засвободу, угнетенных наролных масс.

Вторая глава, под названием «Проблемы демократического общества, гражданских прав и свобод», посвящена выявлению путей с решения политических проблем азербайджанскойобщественной мысли. В ней отмечается важность таких положений, как свобода личности,равенство прав всех граждан и в то же время выявляются причины, препятствующие их достижению в социальной жизни начала XX века. Обосновываетсянеобходимость эмансипации женщин, прогрессивныевоздействие развития науки и просвещения,образования женщин, открытия женских школна социально-политическую жизни общества.

Третья глава диссертации называется «Идея национальной государственности и независимости в азербайджанской демократической мысли в 1900-1920-х годах». В ней показывается, что идея народовластия занимает важное место в демократической мысли. Отмечается значение идей свержения монархии, требования установления конституционного государственного устройства, обеспечивающего граждан правами и свободами иидеи выдающихся деятели демократической мысли о парламентской республике, правила организации национального совета, демократической избирательной системы и обеспечение участия народа в ней. Здесь же рассматривается ряд вопросов, касающихся механизма действия новых законов и свобод граждан, преимущества республиканской формы управления.

В «Заключение» диссертации подводятся итоги проведенного исследования, обобщаются основные выводы.

**BAGIR HAMIDBABAYEV**

# SOCIO- POLITICAL PROBLEMS IN THE EARLY 20th CENTURY (1900-1920) IN AZERBAIJAN DEMOCRATIC THOUGHT

## SUMMARY

Dissertation consists of introduction, three chapters, six paragraphs, a conclusion and a list of used literature. In the introduction part the topicality of the dissertation is substantiated, the main reasons are conditioned, the degree of development of the problem is studied, the object and subject of the research, aims and objectives, source base, theoretical-methodological base, scientific novelty, theoretical-practical significance and aprobation are shown.

The first chapter of the dissertation is called "Theoretical view of the socio-economic development of the Azerbaijani society in the early 20th century." It shows thatthe Azerbaijan's democratic thoughtstands at the peak of our literary, artistic, philosophical and social thought history. The unity of the nation was highlighted. They were looking for a way out of the empire's social troubles.At that time, the romantic people were glorifying a free, ideal and beautiful future society. They were dreaming of such a beautiful world because they were free from oppression and exploitation. They were so far away, but as lovers of a delicious, beautiful future society as paradise.

The second chapter of the dissertation entitled "The problem of democratic society, civil rights and liberties" is devoted to the solution of political problems of citizens. Here is shown the importance of citizens' freedom of personality and equality. Women's freedom is required. Progressive effects of the development of science and education, women's education, and a positive effect of the opening of girls' schools on the social and political life of the society are substantiated. .

The third chapter of the dissertation called "National sovereignty and independence ideas in Azerbaijan in 1900-1920". It is shown that the idea of the people's power occupied a leading position in a democratic sense. The overthrow of the rule of law, the rule of monarchy and the constitutional state administration giving rights and freedoms to citizens was put forward. Parliamentary republic was liked. The organization of the National Assembly, the democratic electoral system, the rules of ensuring the participation of the people in this system are displayed. The mechanism of the new laws, the rights of citizens are discussed. And all of them are considered the beauty of the republican administration.

The "Conclusion" part summarizes the research conducted and the main obtained findings.

Avtoreferat   AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti, 115

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ФИЛОСОФИИ

*На правах рукописи*

**БАГИР ГАМИД оглы БАБАЕВ**

# СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ МЫСЛИНАЧАЛА ХХ ВЕКЕ (1900-1920гг)

**Специальность: 7210.01– История философии**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени
доктора философии по философии**

**БАКУ – 2018**